**"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti**

**ƏMR № 18**

**Bakı şəhəri** **27.04.2020-ci il**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 23.04.2020-ci il tarixli, 16 saylı qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabinetinin "Tədbirlər Planı"nın icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankının təklif etdiyi əlavə dəstəkləyici tədbirləri nəzərə alaraq

**Əmr edirəm**

1. 01 aprel 2020-ci il tarixindən 01 yanvar 2021-ci il tarixinədək listinqə daxil olan korporativ qiymətli kağızlar üzrə listinq tarifləri ləğv edilsin.

2. Qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı tələb olunan sənədlərin dairəsi 01 yanvar 2021-ci il tarixinədək minimallaşdırılaraq, emitentlərdən yalnız notarial qaydada təsdiq edilmiş qiymətli kağızların dövlət reyestrindən çıxarışı və emissiya prospekti tələb edilsin.

3. Ümumi işlər qrupunun rəhbəri L.Qurbanova müvafiq struktur bölmələrin əməkdaşlarını bu əmrlə tanış etsin və həmin əməkdaşlar bu əmrdən irəli gələn məsələləri işlərində rəhbət tutsunlar.

**İdarə Heyətinin sədri v.m.i.e.**

**Eldar Abdullayev**